Rejissor - T.Kazımov, rəssam-İ.Axundov.Nisə xanım-S.Bəşirzadə, Pəri xanım-O.Məmmədova, Şölə xanım-N.Məlikova.

# Məmmədrza Şeyxzamanovun 100 illik yubileyinə həsr olunan xatirə gecəsi keçirilib

**Akademik Milli Dram Teatrında görkəmli teatr və kino aktyoru, xalq artisti Məmmədrza Şeyxzamanovun 100 illik yubileyinə həsr olunan xatirə gecəsi keçirilib. Xatirə gecəsi Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Teatr Xadimləri İttifaqının və Akademik Milli Dram Teatrının birgə təşkilatçılığı ilə baş tutub.**




Xatirə gecəsində M. Şeyxzamanovun sənət dostları görkəmli sənətkarın həyat və yaradıcılığından danışıb, çəkildiyi filmlərdən fraqmentlər nümayiş olunub.

Akademik Milli Dram Teatrının bədii rəhbəri-baş rejissoru Azərpaşa Nemət bildirib ki, Azərbaycan teatr və kino sənətində M. Şeyxzamanovun müstəsna xidmətləri olub: “Sevinirəm ki, Məmmədrza Şeyxzamanovun xatirə gecəsi onun doğma teatrında keçirilir. Məmmədrza müəllim nəhəng aktyor kimi adını teatr və kino tariximizə qızıl hərflərlə yazdırıb, onun bütün rolları yaddaqalan olub”.

Xalq artisti Ağakişi Kazımov M. Şeyxzamanovla bağlı xatirələrini danışıb, sənətkarı böyük obrazların yaradıcısı kimi dəyərləndirib. Xalq artistləri Rafiq Əzimov, Hacı İsmayılov, Ramiz Məlik, əməkdar artist Elxan Qasımov sənətkarın kino və teatr fəaliyyətindən, onların səhnə həyatında oynadığı roldan danışıblar.

Tədbirdə sənətkarın ailəsinin 1937-ci ildə repressiya ilə üzləşməsindən bəhs olunan səhnə, xalq artistinin sənət yolunu özündə əks etdirən sərgi xatirə gecəsinin iştirakçılarının ixtiyarına verilib.

Yubiley mərasiminin rejissoru xalq artisti Mərahim Fərzəlibəyov idi.

Qeyd edək ki, Məmmədrza Şeyxzamanov 1915-ci ildə Gəncədə doğulub. 1954-cü ildən M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında işə başlayıb. Teatrda “Göz həkimi”ndə Şahbazov, “Qış nağılı”nda Poliksen, “Fərhad və Şirin”də Xosrov, “Vaqif”də Qacar, “Otello”da Otello, “Aydın”da Aydın, “Qaçaq Nəbi”də Qaçaq Nəbi, “Vaqif”də Eldar kimi bir-birindən fərqlənən, psixoloji, dramatik obrazları özünəməxsus şəkildə yaradıb.

Şeyxzamanov böyük ekrana ilk dəfə 1955-ci ildə “Bəxtiyar” filmində Rəcəbov rolu ilə çıxıb. Müxtəlif illərdə “Qızmar günəş altında”da Alı kişi, “Leyli və Məcnun”da Dərviş, “Bir qalanın sirri”ndə həkim Eldostu, “Onu bağışlamaq olarmı”da polkovnik Qurbanov, “Qatır Məmməd”də Gəncə qubernatoru, “Nəsimi”də Şeyx Əzəm kimi “Əhməd haradadır”da Şirin kişi, Tütək səsi” filmində İsfəndiyar kişi kimi obrazlar yaradıb. M.Şeyxzamanov 1984-cü il yanvarın 25-də vəfat edib.